İyunun 30-da elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Apellyasiya Şurasının İclasda Elm və Təhsil Nazirliyinin Satınalmalar və qrantlar sektorunun baş məsləhətçisi vəzifəsinə namizəd Aqil Allahverdiyevin, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Maliyyə və təchizat şöbəsinin baş mühasibi vəzifəsinə namizəd İlhamə İmanovanın şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, hər 2 şikayətin təmin edilməsi barədə şura tərəfindən qərarlar qəbul olunub.